AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

Dövlət Proqramı İdarəetmə Qrupu

# BAKALAVRİAT SƏVİYYƏSİNDƏ MÜHƏNDİSLİK İXTİSASLARI ÜZRƏ BEYNƏLXALQ İKİLİ DİPLOM PROQRAMI

## BMU-İNHA İKİLİ DİPLOM PROQRAMI (BMU-İNHA İDP)

Xarici tərəfdaş universitet:
**İNHA UNİVERSİTETİ**
**Koreya Respublikası (Cənubi Koreya)**





Yerli tərəfdaş universitet:
**BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ**
**Azərbaycan Respublikası**

**Tədris ili:** 2023/2024

| | | |
|---|---|---|
| **Hədəf:** | → | • Ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, mühəndislik sahəsində Azərbaycanda 21-ci əsrin tələblərinə cavab verən yeni nəsil mütəxəssislər yetişdirmək;<br>• Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərini beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirmək. |
| **Təhsil səviyyəsi:** | → | **Bakalavriat** |
| **Müddət:** | → | **4 il** (3 il - Azərbaycanda, 1 il – Koreya Respublikası) |
| **İxtisaslar, kvota və keçid balı:** | → | Dörd ixtisas üzrə ümumilikdə **123 nəfər:**<br>• **İnformasiya texnologiyaları –** 35 nəfər (keçid balı – 550/700)<br>• **İnşaat mühəndisliyi –** 25 nəfər (keçid balı – 400/700)<br>• **Elektrik mühəndisliyi –** 28 nəfər (keçid balı – 400/700)<br>• **Elektronika mühəndisliyi** 35 nəfər (keçid balı – 400/700) |
| **Tədris dili:** | → | 3 il BMU-da **İngilis dilində** təhsil (əlavə olaraq Koreya dili tədris edilir);<br>1 il İNHA-da **Koreya dilində** təhsil |
| **Online müraciət:** | → | **5 İyun - 9 Avqust 2023-cü il** |

| | | |
|---|---|---|
| **Təhsil xərclərinin maliyyələşdirilməsi:** | → | Cari proqram 4 il ərzində **tam olaraq dövlət vəsaiti hesabına** təmin olunur. “2019-2023-cü illər üzrə Dövlət Proqramı” tərəfindən qarşılanan xərclər:<br>• 4 illik tam təhsil haqqı;<br>• Koreya Respublikasında 1 illik tam təhsil xərcləri (4-cü kurs);<br>• Koreya Respublikasında 3 həftəlik yay məktəbində iştirak xərcləri;<br>• Tədris materialları və elektron informasiya resurslarına çıxış xərcləri;<br>• Qeydiyyat xərci. |
| | | |
| **Proqram məzunları sahib olacaq:** | → | • 3 il Azərbaycanda və 1 il Koreya Respublikasında oxumaqla 4 ilə 2 diplom;<br>• Tam dövlət təqaüdlü beynəlxalq keyfiyyətli təhsil;<br>• Koreya Respublikasında 3 həftəlik yay məktəbində iştirak;<br>• Dünyaca məşhur Samsung, LG, Hyundai, Kia kimi məşhur şirkətlərə ziyarət;<br>• Sinxronlaşdırılmış iki tədris proqramı (kurrikulum) üzrə təhsil;<br>• Çoxdilli tədris mühitində təhsil (İngilis və Koreya dili);<br>• Seçilmiş yerli və xarici universitetlərin professor-müəllim heyəti ilə tədris imkanı;<br>• Müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyalardan istifadə imkanı;<br>• Müasir tələblərə cavab verən yataqxana ilə təminat;<br>• Magistratura və doktorantura təhsillərini Koreya Respublikasında təqaüdlə davam etdirmək imkanı;<br>• Beynəlxalq təcrübəni öyrənərək qeyd olunan mühəndislik sahələrində müasir bilik və bacarıqlara yiyələnmək;<br>• Dünya səviyyəli uğurlu mütəxəssis olmaq imkanı;<br>• “Dövlət Proqramı” məzunu olmaq imkanı;<br>• Azərbaycanda və dünyanın istənilən ölkəsində işlə təminat şansının yüksək olması. |
| | | |
| **İlkin seçim meyarları:** | → | BMU-İNHA İDP-yə qəbul AR Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən bakalavriat pilləsi üzrə **qəbul imtahanlarının nəticələri** və İNHA Universiteti tərəfindən keçirilən **müsabiqə (daxili imtahan)** əsasında aparılır. Belə ki, proqrama müraciət etmiş namizədlər:<br>• Azərbaycan Respublikasının vətəndaşı olmalıdırlar;<br>• 2023-cü ildə DİM-in 1-ci ixtisas qrupu imtahanında iştirak etməli və uğurlu nəticə göstərməlidirlər;<br>• BMU-İNHA İDP-nin hər ixtisas üzrə müəyyən edilmiş müvafiq keçid balını toplamalıdırlar (keçid balları yuxarıda qeyd edilmişdir);<br>• İNHA Universitetinin təşkil etdiyi daxili müsabiqədən (yazılı imtahan) uğurla keçməlidirlər: Fizika, Riyaziyyat və İngilis dili. |
| | | |
| **Müraciət proseduru və tələb olunan sənədlər:** | → | Daxili müsabiqədə iştirak etmək üçün “onlayn müraciət formasını” dolduraraq tələb olunan sənədləri təqdim etmək lazımdır:<br>• **Şəxsiyyət vəsiqəsinin surəti;**<br>• **3.5 x 4.5 ölçüdə rəngli fotoşəkil;**<br>• **DİM tərəfindən keçirilmiş hər iki imtahanda topladığı balı təsdiq edən rəsmi sənəd;**<br>• **Məktəb attestatının ingilis dilində tərcüməsi və notarial təsdiqi** (attestatını almayan tələbələr təhsil aldıqları orta məktəbdən imzalı və möhürlü arayış təqdim etməlidir); |

<table>
<tr>
<td>Müraciət proseduru və tələb olunan sənədlər:</td>
<td>→</td>
<td>

<ul><li>İngilis dili sertifikatı (olduğu təqdirdə): IELTS 5.5, TOEFL İBT 71 və ya Duolingo 90.</li></ul>

Qeyd 1: İngilis dili sertifikatı təqdim edən namizədlər İngilis dili yazılı imtahanından azad olunur.

Qeyd 2: Proqrama qeydiyyat zamanı namizəd buraxılış iş nömrəsi (300 ballıq imtahan), blok imtahanı iş nömrəsi (400 ballıq imtahan) və şəxsi kabinetin istifadəçi adını (FİN) təqdim etməli olacaq.

Qeyd 3: Daxili imtahan yazılı formada Fizika, Riyaziyyat və İngilis dilindən ibarət olaraq İngilis dilində "JW Marriott Absheron Baku" otelində həyata keçiriləcəkdir.

Qeyd 4: BMU-İNHA İDP-yə qəbul olunmuş namizədlərin siyahısı Elm və Təhsil Nazirliyinə göndərilərək, DİM-də rəsmi olaraq qeydiyyata alınır. Əlavə olaraq, qəbul olunmuş namizədlər rəsmi BMU-İNHA İDP tələbəsi statusunu qazanaraq, DİM-in ixtisas seçimində (kodlaşdırma) iştirakdan azaddırlar.

Qeyd 5: BMU-İNHA İDP-yə qəbul olmayan namizədlərin DİM-in ixtisas seçimində (kodlaşdırma) iştirak etmək üçün ən azı bir həftə vaxtları olacaq.

<hr>

<u>Müsabiqədə iştirak etmək üçün daxili imtahanın vaxtı:</u>

12 Avqust 2023-cü il – Yazılı imtahan (Fizika, Riyaziyyat və İngilis dili)<br>
17 Avqust 2023-cü il – Nəticələrin rəsmi olaraq elan edilməsi

</td>
</tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr>
<td>Əlavə məlumat və əlaqə:</td>
<td>→</td>
<td>

BMU-İNHA İDP  ilə əlaqədar suallarınıza cavab tapmaq üçün:

<ul>
<li>E-mail: ddp.admission@beu.edu.az</li>
<li>Mob: +99451 215-57-34</li>
<li>Tel.: +99412 349-99-66/67 (daxili: 2414)</li>
<li>WEB: http://ddp.beu.edu.az</li>
<li>Facebook: www.facebook.com/ddp.beu.inha</li>
<li>LinkedIn: https://bit.ly/43N5cMH</li>
<li>Instagram: https://bit.ly/40jbFMy</li>
</ul>

Əlavə məlumat üçün aşağıda qeyd olunan müvafiq keçidə daxil ola bilərsiniz:

<ul>
<li>FAQ/MVS (tez-tez verilən suallar)</li>
<li>BMU-İNHA İDP - DAXİLİ İMTAHAN ÜZRƏ SUAL NÜMUNƏLƏRİ</li>
<li>TƏLƏBƏLƏRİN BMU-İNHA İDP BARƏDƏ TƏƏSSÜRATLARI</li>
<li>BMU-İNHA İDP-nin 2023/2024-cü ilin qəbuluna dair TƏQDİMAT</li>
<li>BMU-İNHA İDP-nin 2023/2024-cü ilin qəbuluna dair BUKLET</li>
</ul>

</td>
</tr>
</table>